RESPUBLİKA 12 mart 2020-ci il


# Dini-mənəvi dəyərlərə dövlət qayğısı

Yəqin ki, hər birimiz Ermənistan tərəfindən işğal edilmiş Ağdam şəhərinin xarabalıqları arasında minarələrindən biri uçurulmuş məscidin ürəkdağlayan fotosuna kədərlə baxıb. Erməni faşizmi işğal etdiyi Azərbaycan torpaqlarında ilk növbədə dini-mədəni abidələri məhv edir, tariximizin izini pozmağa cəhd edir.

Erməni vandalizmi özünü xüsusilə Ağdamda daha aqressiv şəkildə büruzə verib, burada abidələr, kurqanlar, tarixi tikililər vəhşiliklə dağıdılaraq yer üzündən silinib. Lakin düşmən bir məqamı unudub, bu vəhşiliyi ilə bizim ruhumuzu, inamımızı sındıra bilməyib, əksinə, torpaqlarımızın işğaldan azad edilməsinə yumruq təki birləşmişik və o gün mütləq gələcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə danışarkən deyib:

—Milli-mənəvi dəyərlər bizim üçün hər şeydən üstündür. Biz öz dini və milli ənənələrimizə sadiqik. Bu möhkəm təməl üzərində müasir dövlət, müasir Azərbaycan qururuq. Müstəqil, azad Azərbaycan dövləti bu böyük işin öhdəsindən layiqincə gələ bilir.

Dövlət başçısının bu dəyərli fikirləri və tövsiyələri Ağdam rayonunda uğurla yerinə yetirilir. Bu günlərdə qədim tarixi olan Xındırıstan kəndindəki qəzalı vəziyyətə düşən tarixi məsciddə bərpa işlərinin başa çatdırılması bunun bariz nümunəsidir.

Bir əsrdən artıq yaşı olan məscid binası uçub dağılmaq təhlükəsi ilə üzləşmişdi. Rayon icra hakimiyyətinin yeni rəhbərliyi tarixi binanın yenidən qurulması üçün işlərə başladı. Binanın dayanıqlılığını artırmaq üçün betonbərkitmə işləri aparılıb. Məscidin xarici görünüşü işğal altındakı Ağdam şəhərində olan məscidin layihəsi əsasında bərpa edilib.

Layihəyə uyğun məsciddə qoşa minarə, həyətdə kişilər üçün 180 nəfərlik, qadınlar üçün isə 70 nəfərlik mərasim zalları inşa edilib. Məscidin ərazisində abadlıq işləri aparılıb, işıqlandırma sistemi quraşdırılıb, həyətinə tamet döşənib.

Qeyd edək ki, Xındırıstan məscidi 1907-ci ildə kənd sakini Hacı Cabbar bəy tərəfindən inşa edilib. Tikili əvvəlcə yaşayış üçün nəzərdə tutulsa da, ötən əsrin 30-cu illərində taxıl anbarı, 80-ci illərində Tarix-Diyarşünaslıq Muzeyi və 90-cı illərdən sonra isə məscid kimi fəaliyyət göstərib.



Bu xeyirxahlıq, diqqət və qayğı kənd sakinlərinin dərin razılığına səbəb olub, dini-mənəvi dəyərlərin qorunmasına yeni bir stimul verib.

**Salman ALIOĞLU,**
**“Respublika”.**